*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 386-392*

https://doi.org/10.62837/2026.2.386

**ELNARƏ ŞİRƏLİ QIZI ƏKBƏROVA**
Bakı Dövlət Universitetinin magistrantı
E-mail: elnarafatali@gmail.com

# TARİXİ FACİƏNİN PSİXOLOJİ PORTRETİ
# "AĞA MƏHƏMMƏD ŞAH QACAR"

**XÜLASƏ**

Azərbaycan ədəbiyyatında istər dramaturgiya və nəsr sahəsində, istərsə də teatr sahəsində misilsiz xidmətləri olan Əbdürrəhim bəy Haqverdiyev öz zəngin bədii irsi ilə ədəbiyyatımızın bənzərsiz simalarındandır. Azərbaycan ədəbiyyatında Ağa Məhəmməd şah Qacar mövzusunda ilk tarixi dram əsəri də məhz Ə.Haqverdiyevə məxsusdur. Tarixi mövzuda yazılmış əsərdə Iran şahının Qafqaza hücumunu, talanlarını və nəhayət faciəli sonunu təsvir etmişdir. Ə. Haqverdiyev Qacara hökmdar kimi yanaşmış, onun mənfi və müsbət tərəflərini göstərmiş, həmçinin xarakterinin mürəkkəb qatlarını sənətkar incəliyi ilə təhlil etmişdir. Bu məqalənin məqsədi Əbdürrəhim bəy Haqverdiyevin dramaturgiyasındakı Ağa Məhəmməd şah Qacar obrazını tarixi və psixoloji baxımdan təhlil etmək, eyni zamanda bu əsərə olan münasibətləri araşdırmaqdır.

**Açar sözlər: Ə.Haqverdiyev, faciə, Qacar, ziddiyyət, tarix**

**Elnara Akbarova**

## A PSYCHOLOGİCAL PORTRAİT OF A HİSTORİCAL TRAGEDY: "AGHA MUHAMMAD SHAH QAJAR"

**SUMMARY**

Abdurrahim bey Hagverdiyev, who has made unparalleled contributions to Azerbaijani literature in both the field of dramaturgy and prose, as well as in the field of theater, is one of the unique figures of our literature with his rich artistic heritage. The first historical drama work on the theme of Agha Muhammad Shah Qajar in Azerbaijani literature belongs to A. Hagverdiyev. In the work written on a historical theme, he described the attack of the Shah of Iran on the Caucasus, his plundering, and finally his tragic end. A. Hagverdiyev approached Qajar as a ruler, showed his negative and positive sides, and also analyzed the complex layers of his character with artistic subtlety. The purpose of this article is to analyze the image of Agha Muhammad Shah Qajar in Abdurrahim bey Hagverdiyev's dramaturgy from a historical and psychological perspective, and at the same time to examine the relationship to this work.

**Keywords: A. Hagverdiyev, tragedy, Qajar, contradiction, history**

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 386-392*

# ПСИХОЛОГИЧЕСКИЙ ПОРТРЕТ ИСТОРИЧЕСКОЙ ТРАГЕДИИ: «АГА МУХАММАД ШАХ КАДЖАР» КРАТКОЕ СОДЕРЖАНИЕ

Абдуррахим бей Хагвердиев, внесший беспрецедентный вклад в азербайджанскую литературу как в области драматургии и прозы, так и в области театра, является одной из уникальных фигур нашей литературы с богатым художественным наследием. Первое историческое драматическое произведение на тему Ага Мухаммада Шаха Каджара в азербайджанской литературе принадлежит А. Хагвердиеву. В произведении, написанном на историческую тему, он описывает нападение шаха Ирана на Кавказ, его грабежи и, наконец, трагический конец. А. Хагвердиев рассматривает Каджара как правителя, показывает его как положительные, так и отрицательные стороны, а также анализирует сложные грани его характера с художественной тонкостью. Цель данной статьи – проанализировать образ Ага Мухаммада Шаха Каджара в драматургии Абдуррахима бея Хагвердиева с историко-психологической точки зрения и одновременно исследовать связь с этим произведением.

**Ключевые слова: А. Хагвердиев, трагедия, Каджарская династия, противоречие, история**

## Giriş

Görkəmli dramaturq Əbdürrəhim bəy Haqverdiyev 1870-ci ildə mayın 17-də Şuşa şəhəri yaxınlığındakı Ağbulaq kəndində anadan olmuşdur. Kiçik yaşlarından atasını itirən balaca Əbdürrəhim müəyyən vaxtlarda atasının əmisinin və atalığı Həsənəli Sadıqovun himayəsində böyümüşdür. Yaşadığı acı xatirələr: bacısı Narinin gözləri önündə dünyasını dəyişməsi həmçinin əmisi arvadinin ona etdiyi zülmlər Ə.Haqverdiyevin həyatında dərin iz buraxmışdır. Əhməd Ağaoğlu öz xatirələrində Tiflisdə təhsil aldığı illərdən danışarkən Ə.Haqverdiyevin də onunla birgə oxuduğunu qeyd edir “Bu beş adamın illərlə davam edən təhsili zamanı erməni uşaqlarından çəkdiklərini sözlə ifadə etmək Imkansızdır. Tənəffüsdə biz-beş türk uşağı cəld tərpənib kürəyimizi divara dirəməyi böyük fərasət hesab edirdik. Tənəffüsdə yüzlərlə erməni uşağı üzərimizə hücum edib birisi başımızdan papağı alıb atır,digəri dörd-beş altun qiymətində olan buxara dərisini torpaqlar üzərində yuvarlayırdılar. Yoldaşlarımdan çoxu dayana bilməyib məktəbi tərk edirlər. Son sinfə qədər türklərdən bir mən dayana bildim”. Böyük ehtimalla Ə.Haqverdiyev də bu işgəncələrə dözə bilməmiş məktəbdən uzaqlaşmışdı. Buradan da aydın olur ki həyat Əbdürrəhim bəy Haqverdiyevə öz sərt üzünü ta kiçik yaşlarından göstərmiş və bu kimi hadisələr, yaşadığı ağır sarsıntılar gələcək zamanlarda yazacağı əsərlərə də sirayət etmişdir. Atalığı Həsənəli Saqdıqov balaca Əbdürrəhimin təlim-tərbiyəsi ilə ciddi məşğul olmuş, ona doğma övlad münasibəti bəsləmişdir. Həmçinin onun

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 386-392*

mükəmməl təhsil almasında, dünyəvi elmlərə yiyələnməsində, Şərq ədəbiyyatının qabaqcıl simaları ilə tanış olması və onların əsərlərini öyrənməsində və nəhayət, böyüyüb belə bir qüdrətli sənətkar olmasında rolu danılmazdır. Əsərlərində ədalətsizlik, qadınların cəmiyyətdə hüquqsuzluğu, kəndlinin ağır həyat şəraiti, maarifçilik və s. kimi çoxşaxəli mövzu dairəsinə müraciət edən ədibin müxtəlif illərdə qələmə aldığı “Dağılan tifaq”, “Bəxtsiz cavan”, “Ağa Məhəmməd şah Qacar”, “Pəri cadu”, “Qadınlar bayramı” kimi bədii nümunələri yaradıcılığının ən gözəl nümunələrindəndir.

**Əsas hissə**

Ə.Haqverdiyevin dramaturgiya sahəsindəki ən sanballı əsərlərdən biri də 1907-ci ildə yazdığı “Ağa Məhəmməd şah Qacar” dramıdır. Azərbaycan ədəbiyyatında ilk dəfə Ə.Haqverdiyev Qacar obrazını dramaturgiyaya gətirmiş və tarixi tragediya yaratmışdır. Qacar obrazı ədəbiyyatımızda müxtəlif vaxtlarda və fərqli yanaşmalarla əks olunmuşdur. Məsələn, Y.V.Çəmənzəminli “Iki od arasında” romanında Qacarın bədii portretini yaratmış və bu əsərdəki hadisələr də, əsasən, tarixi faktlara əsaslanaraq cərəyan etmişdir. Kərim xan Zəndin ölümünə qədərki hadisələrlə başlayan roman, mərkəzi hakimiyyətin süquta uğraması və xanlıqlar arasında hökmranlıq uğrunda müharibələrin başlaması ilə davam edir. Bunlardan biri də Qacar xanlığı olmuşdur ki, burada Ağa Məhəmməd torpaqlarını genişləndirmək istəyən bir xan kimi təqdim edilib. Yəni o nə dost, nə də ki düşmən mövqeyindədir. Daha sonra 1937 – ci ildə Səməd Vurğun “Vaqif” dramında Qacar obrazını fərqli bir yanaşma ilə yenidən yaratdı. Bu əsərdə Qacar “Mənim vicdanım da, qəlbim də qandır, dünya qan üstündə bir xanimandır” fəlsəfəsi ilə yaşayan bir despot kimi təqdim olunmuşdur. Səməd Vurğun yeri gədikcə Qacarı pisləməkdən çəkinməmiş və İranı birləşdirməyə nail olan bu siyasətçini onun cinayətləri və vəhşilikləri altında tamamən dəyərsiz mövqedə göstərmişdir. Həmçinin Azərbaycanın milli birlik idealı kimi tanınan B.Vahabzadə özünün “Səməd Vurğun” adlı monoqrafiyasında bu görüşü pisləyir və qeyd edir: “Vaqifin “qatır cinsisiniz, doğub törəməz” deyə, Qacarın fiziki şikəstliyinə toxunması onu həm insan, həm də bir şair kimi nəzərimizdə kiçildir. Böyük əməllər və fikirlərlə yaşayan Vaqif, Qacarı ittiham etmək üçün daha mənalı və kəsərli ifadələr tapa bilərdi”. [5, s 265] Bəziləri Qacarın qaniçən olması qənaətinə gəlsə də, Ə.Haqverdiyev Qacarı mənfi və müsbət tərəfləri ilə İranın gələcəyi naminə çalışan hökmdar kimi təsvir etmişdir. Əsərin əvvəlinci məclisində şirazlıların dilindən müəllif Qacarın uşaqlığından, gəncliyindən, həmçinin başına gətirilən müsibətlərdən məlumat verir və onun gənclik dövründə keçirdiyi həyat yolu, eyni zamanda şəxsi inkişafı xüsusi diqqətə çatdırılır. Məsələn, Şirazdakı hadisələrdə onun intiqam hissi və siyasi mübarizələri ilə bərabər intellektual inkişafı ön plana çıxır. Belə ki, gənclik illərində kitablarla əhatələnmiş mühitdə tərbiyə olunması, onun akademik səviyyəsinin formalaşmasında mühüm rol oynamışdır. Bu kontekstdə, Ağa Məhəmməd Xanın çoxsaylı kitab oxuması və elmi biliklərə olan

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 386-392*

marağı, onun yalnız bir siyasi lider deyil, eyni zamanda savadlı bir şəxsiyyət kimi də formalaşdığını da göstərir. Həmçinin şirazlının dilindən deyilən "Odur ki işdən fariq olan vaxt kənara çəkilib kitablardan dərdinə dərman istəyirdi, barmağını kitab arasına qoyub fikrə gedirdi. O böht deyildi, bəlkə də cəmi İranın gələcək günlərinin fikri idi" [2, s 153] düşüncəsi ilə artıq Ağa Məhəmməd xan Qacarın hətta gənclik illərindən İranı birləşdirərək adını silinməz hərflərlə tarixə yazıb cəmiyyətdən intiqam alması niyyətində olduğunun göstəricisi idi. Ədibin Qacara yanaşması tamamilə orijinal bir baxışdır, belə ki, hadisələr İranın mürəkkəb bir dövründən bəhs etdiyi üçün əsər boyu tez-tez dəyişən ictimai siyasi vəziyyətlərdə Qacarın mürəkkəb və ziddiyyətli xarakterinin şahidi oluruq.

Xalid Əlimirzəyev qeyd edir ki "Faciədə dramatik münaqişə bir-biri ilə üz-üzə dayanan müxtəlif qütblərin mübarizəsindən daha çox daxili konflikt əsasında qurulmuşdur". [1, s 222] Həqiqətən də biz əsəri təhlil etdikcə bir insanın daxili aləmində paralel şəkildə mövcud olan və daim bir-biri ilə münaqişədə olan iki müxtəlif qüvvənin şahidi oluruq. Bu qüvvələrdən biri tarixi-milli məsuliyyət hissindən qaynaqlanan, uzun müddət daxili çəkişmələr və siyasi pərakəndəlik nəticəsində zəifləyən İran dövlətini yenidən dirçəltmək, onu mərkəzləşmiş və vahid hakimiyyət ətrafında birləşdirmək arzusu və bu məqsədə yönəlmiş ardıcıl fəaliyyətlərlə səciyyələnir. Həmin xətt Qacarın dövlətçilik düşüncəsini və strateji hədəflərini əhatə edir. Digər qüvvə isə əsərdə cismən şikəst olan bir fərdin travmaları nəticəsində despotizmə və qəddarlığa meyilli bir xarakter yaradır. Natamamlıq kompleksi Qacarın insanlara münasibətində amansızlıq, qəddarlıq və despotizm kimi keyfiyyətlərin ön plana çıxmasına səbəb olur. Bu daxili ziddiyyət bəzən onun daxili hakimiyyətində də boşluqlar yaradır. Müəllif bu iki bir – birinə zidd olan xarakteri üz-üzə gətirməklə Qacarın şəxsiyyətində dövlət quruculuğu idealı ilə insanlığa qarşı yönəlmiş qəddar davranışlar arasındakı kəskin paradoksu bədii müstəvidə açıq-aşkar göstərir. Beləliklə, obraz təkcə tarixi bir obraz kimi deyil, həm də hakimiyyət ehtirası ilə mənəvi aşınma arasında qalan mürəkkəb xarakterli və faciəvi bir insan portreti kimi təqdim olunur.

Əbdürrəhim bəy Haqverdiyevin dramaturgiyasında Ağa Məhəmməd Şah Qacar obrazı dövlətçilik ideyasına xidmət edən bir hökmdar kimi təqdim olunur. Müəllif bu obrazı təqdim edərkən onun həm öz həyatını, həm də yaxınlarının taleyini dövlət mənafeyi qarşısında heçə sayan bir şəxsiyyət olduğunu vurğulamaqdan çəkinmir. Haqverdiyevin təsvirində Qacar əsl hakim obrazında çıxış edir: dövlətin birliyini və siyasi sabitliyini təmin etmək məqsədilə ən sərt qərarlardan belə çəkinmir, hətta gələcəkdə şahlıq uğrunda daxili çəkişmələrin qarşısını almaq üçün canından artıq sevdiyi və onu hakimiyyətə gətirən qardaşı Cəfərqulu xanı belə öldürtməkdən boyun qaçırmır. Bu kontekstdə müəllif Qacarın bütün fəaliyyətinin mərkəzində yalnız İranın taleyi, onun gələcəyi və dövlətin bütövlüyü ideyasının dayandığını göstərir. Biz Qacar obrazını qaniçən və qəddar olmasına görə, həmçinin

zülm və zalımlığına görə qınayırıq. Lakin onun başına gətirilənlərə baxdıqda dərk edirik ki, həyat Qacara da ədalətli davranmayıb, kiçik yaşlarından atasının ölümü gözü qarşısında baş verib və şikəst buraxılıb. Bu kimi səbəblərdən Ağa Məhəmməd şah Qacar ömrünün sonuna kimi qisas hissi ilə yaşamışdır. Lakin qisas alsa belə o əvvəlki vəziyyətə qayıdacaqdımı?! Və yaxud Qacar kimdən qisas alsın?!

Qacar yalnız İranı bütöv halda birləşdirməklə, adını tarixə yazdırmaqla sanki tarixdən də qisasını almışdır. Əsərin əsas obrazı olan Qacar haqqında müxtəlif fikir ayrılıqları mövcuddur. Belə ki, Yaşar Qarayev qeyd edir: "Süjetin və hadisələrin mərkəzində öz qorxunc ehtirası ilə Qacar dayanır. O, fiziki cəhətdən xəstə, daxilən eybəcər, əzazil və bədsifətdir. Lakin iradə və hissiyyatında təcəssüm edən qətiyyət və qüvvət qeyri adi və qorxuncdur. Təbiətən təhqir olunduğu üçün heç bir müqəddəslik, xeyirxahlıq və vicdan idealı tanımır, məhəbbət, mərhəmət hissindən məhrum, eqoist və ikiüzlüdür". [3, s 89] Lakin əks mövqedə dayanan Röya Mürşüdova qeyd edir "Bu deyilənləri Əbdürrəhim bəy Haqverdiyevin yaratdığı Qacar obrazına şamil etmək nə dərəcədə ədalətlidir? Axı Tiflis şəhərinin yandırılması əmrini verəndə, qardaşlarını hətta Cəfərqulu xanı öldürtdürəndə, Qarabağı mühasirədə saxlayanda belə dramaturq Qacarı qaniçən qəddar hökmdar kimi təqdim etmir. Əksinə Haqverdiyev Qacara tarixi şəxsiyyət kimi dəyər verir və onu qələminin ucuyla dairəyə alaraq ünvanına söylənəcək, zaman-zaman üzləşəcəyi qınaqlardan qorumağa cəhd edir". [4, s 10-11]

Daha sonra biz Qacarın simasında "xeyirxah və humanist" bir hökmdar görürük. Qacarın dilindən verilmiş "Budur ucadan deyirəm ta mənim sözlərimi bütün dünya eşitsin. Mən Ağa Məhəmməd Xan Qacar, açıq və aydın bu gündən məlum edirəm ki, hər kəslə indiyədək ədavətim vardı, o ədavəti burada ürəyimdən çıxarıdıram. Heç kəslə heç vaxt düşmənçilik etməyəcəm." (seh 157 1ci cild haqverdiyev) Bu epizodda Qacar zahirən "humanist" bir hökmdar obrazına daxil olur və özünü kin-küdurətdən uzaq, bağışlayan bir lider kimi təqdim edir. Bu "bağışlama" aktı torpaqların birləşdirilməsi naminə müvəqqəti və taktiki xarakter daşıyır; Qacar şəxsi qisas hissindən imtina etdiyini göstərməklə siyasi məqsədinə — dövlətin vahid hakimiyyət altında birləşdirilməsinə — daha asan yol açmağa çalışır. Beləliklə, burada Qacar səmimi humanist deyil, məqsədyönlü şəkildə humanist obrazını oynayan bir hökmdar kimi çıxış edir. Onun intiqamdan əl çəkməsi mənəvi saflaşmanın nəticəsi yox, hakimiyyət strategiyasının tərkib hissəsi kimi təqdim olunur. Dramaturq bu üsulla Qacarın obrazında siyasət və əxlaq arasındakı ziddiyyəti üzə çıxarır, humanizm pərdəsi altında gizlənən hakimiyyətə nəzarət gücünü oxucuya sezdirməyə çalışır. Bu sözləri Qacar həmçinin qoşun böyüklərinə çatdırmaqla bir növ onların psixikasına təsir edərək, həmçinin onların dul qalmış qadınlarının və yetim düşmüş uşaqlarının ahının kimin üzərinə düşəcəyi məsələsini önə çəkərək psixoloji təzyiq yaratmış, bu yolla qoşun başçıları və əsgərlər üzərində manipulyativ təsir göstərərək onları döyüşdən yayındırmışdır.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 386-392*

Pyesdə Əli xan Əfşarın Tehran ətrafında düşərgə salıb mühasirəyə hazırlaşmaq xəbərini eşidən Qacar Mirzə Cəfər xana deyir "Hər bir düşmən müqabilinə qoşunla getsən axırda qoşunsuz qalarsan. Dava var qılıncla qurtarır dava var dillə. Əvvəl dil sonra qılınc qoşunu mənə lazımdır." [2, s 165] Qacar bu sözlərlə açıq şəkildə bildirir ki, hər qarşıdurmanı yalnız hərbi güclə həll etmək dövlət üçün tükəndirici və təhlükəli yoldur. "Hər bir düşmən müqabilinə qoşunla getsən axırda qoşunsuz qalarsan" cümləsi onun müharibənin resurs itirən tərəfini dərk etdiyini göstərir. Qacar üçün qoşun sadəcə döyüş aləti deyil, dövlətin əsas dayağıdır. "Dava var qılıncla qurtarır, dava var dillə" ifadəsi Qacarın zorakılıqla yanaşı diplomatik və psixoloji üsullara da üstünlük verdiyini ortaya qoyur. Bu, Qacarın yalnız qəddar sərkərdə deyil, rasional siyasətçi olduğunu göstərən mühüm məqamdır. "Əvvəl dil, sonra qılınc qoşunu" prinsipi onun hakimiyyət strategiyasının mahiyyətini ifadə edir. Qacar üçün hərbi güc son vasitədir; əsas məqsəd minimum itki ilə maksimum siyasi nəticə əldə etmək idi. Beləliklə, Qacarın bu davranışı onun əsl niyyətini — "parçala və hökmranlıq et" siyasətini açıq şəkildə üzə çıxarır. O, bir tərəfdən sülh, birlik və qardaşlıq ideyalarını dilə gətirsə də, digər tərəfdən bu ideyaları zor və kütləvi cəza vasitəsilə həyata keçirməyə çalışır. Dramaturq bu ziddiyyətli yanaşma ilə Qacarın obrazını səmimi dövlət qurucusu ilə bərabər məqsədinə çatmaq üçün hər vasitəni mübah sayan avtoritar hökmdar kimi təqdim edir və oxucunu hakimiyyətlə əxlaq arasındakı kəskin qarşıdurma üzərində düşünməyə vadar edir.

Əsərin son pərdəsində biz Qacarın ölüm səhnəsini görürük. Bu sonluq dramın əvvəlindən bəri gözlənilən bir final idi. 5 pərdəli bu tarixi faciənin ilk məclisindən bəri Qacarın davamlı cinayətləri, işğalları, xalqa etdiyi zülmlər onu ölümə yaxınlaşdıran amillərdir. Müəyyən məqamlarda ədalətsizliyi ilə diqqət çəkən Qacar ilahi ədalətin qurbanı olur.

Ə.Haqverdiyev Qacarı təqdim edərkən onun başına gətirilən müsibətləri öncədən qeyd edir və sanki oxuculara həmin obrazı empatiya hissi ilə dəyərləndirməyə təşviq edir. Həmçinin bu yanaşma Qacarın xarakterini daha dərindən anlamağa kömək edir. Tədqiqatçı Mətanət Saraclı yazır: "Müəllif Qacarı qeyd etdiyimiz kimi, öz fərdi keyfiyyətləri ilə də fərqləndirir: parçalanmış İranı birləşdirməyə çalışan ağıllı, qətiyyətli siyasətçidir. İranın keçmiş şöhrəti ilə öyünüb onu qaytarmağa çalışan vətənpərvərdir. Bütün cəhdlərinə baxmayaraq, özünü Şah İsmayıl, Şah Abbas səviyyəsində görməyib onların taxdığı atributları hələ özünə layiq bilməyən təvazökar sərkərdədir. Ən nəhayət, dünya nemətlərindən məhrum edildiyi üçün özünün şəxsi faciəsinin heyfini bütün cəmiyyətdən, bütün bəşərdən almağa qadir olan və bunu bacaran tragik xarakterdir". Bu təhlillərdən çıxış edib deyə bilərik ki, Qacar ziddiyyətli obrazdır. Çünki biz Qacarın xarakter və əməllərini açarkən təkcə yuxarıdakı fikirlərə əsaslanaraq Qacara haqq qazandıra bilmərik, axı onun Gürcüstan əhalisinə tutduğu divan , qoca və kor Şahruxun cavahirata görə başına qurğuşun tökdürməyi insanlığa sığmır. Qacarın zülmləri bununla

kifayətlənmir, lakin Y.Qarayevin qeyd etdiyi kimi onu mənfi planda da təqdim edə bilmərik.

**Nəticə**

Aparılan təhlildən aydın olur ki, Ağa Məhəmməd şah Qacar obrazı tarixi şəxsiyyət kimi istər Azərbaycan istərsə də dünya tarixində dərin iz buraxmış hökmdar olmuşdur. Bu obrazın ədəbiyyata gətirilməsi şair və yazıçılarımız tərəfindən həm uğurlu həm də maraqlı bir hadisə olmuşdur. Qacar obrazı ilə bağlı fərqli yanaşmaların olması onun mürəkkəb xarakterə sahib olması ilə bağlıdır. Buna görə də tarixçilər, ədəbiyyatşünaslar və başqa ixtisas sahibləri Qacara öz aspektlərindən yanaşmışdırlar. Əgər tarixçilər Qacarı qan içən bir cəllad kimi göstərirsə, bundan fərqli olaraq ədəbiyyatşünaslar tarixi həqiqətlərə sadiq qalaraq məsələyə emosional yanaşır və Qacarın bu qətliamları törətməkdə niyyətlərini açır, xarakterinin dərininə enir və onu bu əməlləri törətməyə təhrik edən hisslərin nə vaxtsa yaşadıqlarının karması kimi qiymətləndirirlər. Əbdürrəhim bəy Haqverdiyev də "Ağa Məhəmməd şah Qacar" dramını yazarkən müxtəlif mənbələrdən axtarmış, dərin müşahidələr etmiş və tam orijinal bir əsər ortaya çıxarmışdı. Qacar obrazının xarakterini açarkən müəllif uğurlu monoloq və dialoqlardan istifadə etmiş və dramatik konflikt əsər boyu getdikcə şiddətlənmişdir Həmçinin bu əsərdə əsas ziddiyyət və münaqişə Qacarın daxilində xeyirlə şər, ağılla nifrət, işıq və qaranlıq arasında gedirdi. Ona görə də əsəri təhlil edərkən təkcə Qacarın apardığı daxili və xarici siyasətlə kifayətlənməməli, eyni zamanda onun iç dünyasının açılmasına və daxili münaqişənin də səbəblərini araşdırmağa nail olmalıyıq. Həmçinin əsərin sonunda Qacarın ölümü anında "İranı viran qoydun" deməsi isə öldükdən sonra İranın parçalanacağına əmin olduğunun göstəricisi idi. Qacarın ölüm anında belə ölkəni düşünməsi həmçinin onun elm və təhsillə maraqlanması, kitablar oxuması onun xarakterində uğurlu nüanslardandır.

## ƏDƏBİYYAT SİYAHISI

**1.** Əlimirzəyev X. "Klassiklərimizin ideal və poetik sənət dünyası". II cild. Bakı. Elm və təhsil. 2009. 668s.

**2.** Haqverdiyev Ə. Seçilmiş əsərləri. I cild. Bakı. Lider nəşriyyat. 2005. 504s.

**3.** Qarayev Y. "Faciə və qəhrəman".Bakı. Azərbaycan SSR Elmlər Akademiyası. 1965. 191s.

**4.** Mürşüdova R. "Dramaturq rakursunda Ağa Məhəmməd şah Qacar". 525ci qəzet. 02.04.2024. Nömrə 56. 10-11s.

**5.** Vahabzadə B. "Səməd Vurgun". Bakı. Azərbaycan dövlet.1968. 348 s

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, Jalə Hüseynova**